# BİRİNCİ FƏSİL

# ƏBU-NƏSR ƏL-FƏRABİNİN (873-950) İCTİMAİ-SİYASİ VƏ TARİXİ GÖRÜŞLƏRİ

## 1.1. Əl-Fərabi irsnin tədqiqi tarixindən



Fərabi zəngin yaradıcılıq irsi qoyub getsə də, indiyə qədər onun traktatlarını, ədəbi, ictimai-siyasi, pedaqoji, elmi və digər sahələr üzrə fəaliyyətini əks etdirən əsərlərinin toplanıb ümumiləşdirilməsi başa çatdırılmamışdır. Onun haqqında dünyanın bir çox ölkələrində ərəb, latın, yəhudi, ingilis, fars, türk, rus, özbək, fransız, alman, ispan, italyan, polyak və b. dillərdə əsərlər yazılmışdır. Müasir tarixşünaslıqda, şərqşünaslıq və fəlsəfə tarixşünaslığında bu irsin öyrənilməsi üç istiqamətdə aparılır: 1) Fərabinin dünyanın bütün ölkələrinə səpələnmiş halda olan əlyazmalarını, onun əsərlərinə yazılmış şərhləri və tənqidi mətnləri, bioqrafiyanı axtarıb tapmaq və öyrənmək; 2) Fərabinin dünyanın müxtəlif dillərə tərcümə olunmuş əsərlərini aşkara çıxarmaq; 3) Onun həyat və fəaliyyətinə, coxsahəli elmi yaradıcılığına – fəlsəfə, sosiologiya, tarix, təbiətşünaslıq və dəqiq elmlər, musiqi, incəsənət və digər elm sahələrinə həsr olunan elmi-tədqiqat əsərlərini axtarıb üzə çıxarmaq və öyrənmək.

Fərabi haqqında ədəbiyyatı xarakterinə görə 3 əsas qrupa bölmək olar: 1) Şərq ölkələrində Fərabinin yaradıcılıq irsinə həsr edilmiş müsəlman mənbələri; 2) Qərb ölkələrinin tarix və

fəlsəfə tarixşünaslığında Fərabiyə həsr olunmuş əsərlər; 3) Fərabi haqqında sovet tarixşünaslığında, habelə onun vətəni Mərkəzi Asiyada yazılmış elmi-tədqiqat əsərləri.

Fərabi haqqında qiymətli materiallara orta əsr müsəlman mənbələrində – ərəb, fars, türk dillərində yazılmış əsərlərdə, lüğətlərdə, sorğu kitablarında rast gəlinir. XIII-XIV əsr müəllifləri Behyaki, əl-Kifti, ibn-Üsaba, ibn-Halukalın əsərləri, habelə sonrakı əsrlərin Şərq və Qərbi Avropa tədqiqatçılarının Fərabinin yaradıcılıq irsinə həsr etdiyi əsərlər dövrün mənbələrini təşkil edir.

Fərabi haqqında ayrıca maraqlı məlumatlar müsəlman müəllifləri Əbdülqaffar Qəzvininin (XVI əsr), Məhəmməd Hüseynin (XVI əsr), Əli Əkbər Hüseynin (XVI əsr), Hacı Çələbinin əsərlərində vardır.

Lakin bu sadalananları Şərqin nüfuzlu və görkəmli mütəfəkkiri Fərabinin görüşləri haqqında ardıcıl elmi təhlil hesab etmək olmaz. Bu müəlliflərin əksəriyyəti onu rəsmi müsəlman mövqeyindən, islamın ideoloqu kimi təsvir etməyə çalışmışlar. Bu müəlliflərin bəzilərinin məlumatlarında Fərabi ilə ortodoksal islam din xadimləri arasında fikir və ideya ayrılığı olması faktı da yer almışdır.

Fərabinin adı və onun bir sıra traktatları Avropa ölkələrində hələ XI-XII əsrlərdən məlum olmasına baxmayaraq, onun zəngin irsinin sistemli şəkildə öyrənilməsi Avropada XIX əsrin sonuna aiddir. Bu sahədə M. Ştreynşeyder, F. Deteritsi, M. Xorten, D. Buur, İ. Qoldsner, A. Ştekl, Karadevo, R. Ermanxer, A. Krımski, M.Filippov, M.Allars, Q. Fadmer, D.Danlon, R.Xammond, N. Riçar və b. öyrənməyə başlamışlar.

Nəhayət, XX əsrin 30-50-ci illərində Yaxın və Orta Şərq ölkələrində Şərq fəlsəfəsinin, tarixşünaslığının və şərqşünaslığının ayrı-ayrı nümayəndələrinin – alimlərin əsərlərində Fərabinin yaradıcılıq irsinə diqqət yetirilmiş və bu öz əksini Yuhan Humeyranın, Mahmud Allarsın, Ömər Fərruxun, Osman Əlinin, İ.Madrukun, Dehhedonun, F. Nayyaqəin, Razəndi Təbrizinin, Siddiqi Məcuminin-Şirvaninin, D.Daminmanın, A.Atəşin,

M.Aydının, M.Türkeşin əsər və məqalələrində tapmışdır. Fərabinin anadan olmasının 1000 illyi ilə əlaqədar Ankara, İstanbul və Daşkənd universitetlərinin nəşrlərində də çoxlu materiallar vardır.

## 1.2. əl-Fərabinin dövrü, ictimai-siyasi mühit.

Ərəb xilafətinin tərkibinə qatıldıqdan sonra Mərkəzi Asiya xilafətin sosial-iqtisadi və mədəni həyatında fəal rol oynamağa başladı. Qədim Şərqin kənd təsərrüfatı məhsulları, qızıl, gümüş, dəmir, qurğuşun, mis və b. faydalı qazıntıları ilə məşhur olan Mərkəzi Asiyanın orta əsrlərdə böyük «İpək yolu» üstündə yerləşən Səmərqənd, Buxara və Fərqanə kimi qədim şəhərləri mühüm rol oynayırdı. Burada eyni zamanda yüksək keyfiyyətli ipək parçalar istehsal olunur, Bizans, Hindistan, Çin və Rusiya ilə ticarət əlaqələri aparılırdı. Xarici ticarətlə yanaşı əkinçiliklə məşğul olan və oturaq həyat keçirən qəbilə və tayfalar arasında ticarət əlaqələri yaranmışdı. Mərkəzi Asiya xalqlarının yüksək mədəniyyətini nümayiş etdirən dəlillərdən biri də, burada Soqdi və Xarəzm yazısının tətbiqi idi.

Ərəb xilafətinin qarışıq sosial tərkibi, müxtəlif siniflərin, qrupların və təbəqələrin maraqlarının toqquşması, xilafətin işğal etdiyi ərazilərdə, o cümlədən Mərkəzi Asiyada siyasi mübarizənin başlanmasına şərait yaradır, mənəvi həyatda mühüm həlledici amilə çevrilir və müxtəlif ideya cərəyanlarına bilavasitə təsir edirdilər.

X əsrin sonlarından başlayaraq üç əsr ərzində Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Mərkəzi Asiyada yüksək mədəni yüksəliş və oyanma başlanır. Təbiətşünaslar, şairlər, filosoflar, ayrı-ayrı elmlərin görkəmli nümayəndələri öz fəaliyyətlərini genişləndirir, tərcümə işləri görünməmiş miqyas almağa başlayır. Məhz bu dövrdə meydana çıxan elmi və bədii əsərlərin bir çoxu bu gün də öz elmi əhəmiyyətini saxlamaqdadır.

Mərkəzi Asiyanın mədəni həyatında baş verən yüksəliş, ərəb xilafəti ilə təsərrüfat-iqtisadi əlaqələrin güclənməsi, qonşu

Hindistan, İran, Mesopotamiya, Misir, Yunanıstan, Roma kimi inkişaf etmiş dövlətlərin və xalqların mədəniyyətləri ilə qarşılıqlı və sıx əlaqədə iqtisadiyyatın, sənətkarlığın, şəhər həyatının, daxili və xarici ticarətin inkişafı ilə bağlı idi. Bu dövrdə Dəməşq, Aleppo, Rey, Səmərqənd, Buxara, Mərv, Şaş (Daşkənd) və bu kimi qədim şəhərlər inkişaf edib yüksəlməklə yanaşı ərəb xilafəti dövründə Şərqdə yeni şəhərlərin əsası qoyulurdu. Bunlardan Fələstindəki Ramla, Vəcic (III əsrdə), Bəsrə və Kufə (təxminən 635-ci ildə), Köhnə Fustat, Samirə (əvvəlki, təxminən 640-cı ildə), İraqda Bağdadı (təxmiən 762-ci ildə) və yeni Samirə (təxminən 835-ci ildə) belə şəhərlərdəndir. Xilafət ərazisindən keçən karvan yolları müxtəlif əraziləri iri bazarlarla birləşdirirdi. Beləliklə, cəmiyyətin sosial-iqtisadi həyatında baş verən dirçəliş və tərəqqinin təsirş altında mədəniyyət inkişaf edirdi.

Təxminən X əsrin əvvəllərindən başlayaraq xilafət zəifləyir və ayrı-ayrı feodal dövlətlərə parçalanmağa başlayır. İşğal olunmuş Mərkəzi Asyia, İran, Şimali Afrika, İspaniya və b. ölkələrdə yaranmış bu dövlətlərdə mədəni dirçəliş baş verirdi. Bu dövdə bir çox dövlət başçıları məhz milli təəssübkeşlik mövqeyini müdafiə edərək öz saraylarına görkəmli alimləri, şairləri, rəssamları və b. dəvət etməklə, həm onlardan dövlətin idarəsində istifadə edir, həm də onlara himayədarlıq və köməklik edirdilər.

VIII əsrin II yarısı-IX əsin birinci yarısından başlayaraq dünyəvi elmlər sürətlə inkişaf etməyə, xüsusilə təbiət elmləri cəmiyyətin həyatında mühüm rol oynamağa başlayır. Ərəb xəlifələri Mənsur (754-776), Harun Ər-Rəşid (786-809), Məmun (813-833) bu işə xüsusi qayğı göstərir və köməklik edirlər. Bu dövrdə islamın görkəmli ideoloqu Əbu-Həmid əl-Qəzəli, «təmiz qardaşlar» fəlsəfi cərəyanının üzvləri, sufizm ideya cərəyanı, orta əsrlərin riyaziyyat elminin banisi Məhəmməd ibn-Musa əl-Xarəzmi (783-850), IX əsrin görkəmli astronomu, əslən Mərkəzi asiyalı olan Məhəmməd əl-Fərqani, Xocəndi, Türki, Mərvəndi, Hərrar əl-Battani (852-929), xorasanlı riyaziyyatçı Əbül Vəfa (940-997), əl-Sufi (X əsr), əslən reyli olan görkəmli həkim və kimyaçı Zəkəriyyə ər-Razi (865-925), buxaralı Əbu əl-İbn-Sina (980 -1037)

kimi dövrün böyük alimləri yaşayıb yaratmışdılar. Dəqiq elmlər sahəsi ilə bərabər humanitar elmlər, o cümlədən tarix, ədəbi proseslər və hadisələr, coğrafi kəşflər və ixtiralarla bağlı olan görkəmli alimlər də yetişmişdi. Bununla biz yuxarıda adlarını qeyd etdiyimiz görkəmli ensiklopedist alimlərin yaradıcılıq diapozonunu məhdudlaşdırmaq fikrində deyilik. Şübhəsiz ki, onların əsərlərində dövrün bütün problemləri kimi tarixə dair geniş materiallar və məlumatlar da vardır. Həm də, əl-Fərabi kimi böyük ensiklopedik mütəfəkkirin yetişməsi və formalaşmasında qeyd etdiyimiz alimlərin təsiri və xidməti əvəzsizdir. Bizim məqsədimiz isə əl-Fərabinin ictimai-siyasi və tarixi görüşlərini açıb ümumiləşdirmək olduğundan onun sələfləri, müasirləri və xələfləri haqqında, bu dövrdə yaşayıb yaradan humanitar elm nümayəndələri, o cümlədən tarixçilər haqqında məlumat verməklə onun tarix sahəsindəki xidmətlərini göstərməkdir.

VII əsrdə islamın ortodoksal əsaslarını müxtəlif müxalifətçi qrup, cərəyan və təriqətlərdən qorumaq üçün müsəlman doqmatik dini-ilahiyyat (kəlam) təlimi meydana gəlmişdi. İslamın görkəmli ideoloqu Əbu Hamid əl-Qəzəli «Ulum əl-islam» (İslam haqında elm) adlı təlimi ilə müsəlman ideologiyası sisteminin əsasını qoymuşdu.

IX əsrdə yaşamış görkəmli fars tarixçisi Əbül Abbas əl-İran Xorasanda yaşmış əl-Biruninin (973 -1048) dediyi kimi, təbiəti öyrənməklə bərabər din tarixinin öyrənilməsi ilə məşğul olmuşdu. Biruninin göstərdiyinə görə o, tələbəsi Zəkəriyyə ər-Razi kimi xristian tarixini ardıcıl vermişdi. «Yeni din» təliminə qarşı çıxan orta əsrlərin din tarixçisi Əbu Məvali Məhəmməd Hüseyn Ələvi onun haqqında yazırdı. «İran şairi fars dilində yazılanları ümumiləşdirib bunu ilahi kəşfi kimi vermişdi»

Xilafət hakimiyyəti dövründə vahid poçt sisteminin mövcud olması, quru və su ticarət yollarının geniş inkişafı ərazidə ticarətin tərəqqisi ilə yanaşı həmin ölkələrə görkəmli elm və maarif xadimlərinin, səyyahların marağı nəticədə tarixi-coğrafı məlumatlar, qeydlər, xatirə ədəbiyyatının və s. yaranmasına səbəb olmuş, bu əsərlərdə və materiallarda Hindistan, Seylon, Şimali

Afrika, Zaqafqaziya, Rus dövləti, İspaniya və b. ölkələr haqqında geniş məlumatlar vardır. Görkəmli sovet-rus şərqşünası İ.Y.Kraçkovskinin «Ərəb coğrafi ədəbiyyatı» adlı əsərində yazdığı kimi, bu dövrün tarixi-coğrafi əsərlərindən tarixçilər, coğrafiyaşünaslar, sosioloqlar, iqtisadçılar, ədəbiyyatçılar, dilçilər və təbiətşünaslar istədiyi qədər geniş material tapa bilərlər. IX-X əsrlərin görkəmli coğrafiyaşünasları, səyyah və tarixçiləri olan ibn Xordadbeh (820-912), əl-Yəqubi (905-ci ildə vəfat edib), əl-Məsudi (956-cı ildə vəfat edib), əl-Bəlxi (850-934), əl-İstəxri (849-934), əl-Mukad (X əsr), İbn-Fədlan (X əsr), görkəmli tarixçilər ət-Təbəri (925-ci ildə vəfat edib), əl-Bəlazuri (992-ci ildə vəfat edib) və b. əsərlərində Fərabi dövrünədək və onun dövrü haqqında maraqlı faktlar və məlumatlar vardır.

Mavərənnəhrin görkəmli tarixçiləri içərisində Samanilər dövlətinin əmirləri Əbdül-Məlikin (954-961) və Mənsurun (961-876) tanınmış vəziri olan əl-Valəmi böyük tarixçi ət-Təbərinin əsərlərini ilk dəfə qısa şəkildə tacik dilinə tərcümə etmişdi. Bu tərcümə əsasında sonralar həmin əsər türk, ərəb və fransız dillərinə çevrilmişdi.

Tarix və coğrafi elmlər sahəsində sanballı tədqiqat işi X əsrdə tacik dilində yazılmış «Hüdud əl-Aləm» («Dünyanın hüdudu») əsərində Samani dövlətinin X əsrin ikinci yarısındakı tarixi və coğrafi mühiti təsvir olunurdu.

## 1.3. Əl-Fərabinin həyatı və yaradıcılığı

Əl-Fərabinin həyat yolu haqqında bizə son dərəcə az məlumat çatmışdır. Bunlar əsasən müsəlman Şərqinin görkəmli alimlərinin, səyyah və coğrafiyaşünaslarının əsərlərində verilən yanlış və çox zaman ziddiyyətli məlumatlardan ibarətdir.

Əbu-Nəsr ibn Məhəmməd ibn Uzluq ibn Tərxan əl-Fərabi miladi tarixinin 873-874-cü illərində (hicri tarixinin 260-cı ilində) Arıs çayının Sır-Dəryaya töküldüyü yerdə-Fərab şəhərində anadan olmuşdu. XIII-XIV əsrlərin tarixçilərinin məlumatlarına görə, Fərab Şimali-Qərbi Şaşın (indiki Daşkəndin) şimalında

Syutkənd yaxınlığında yerləşirdi. Akad. V.V.Bartold orta əsr ərəb tarixçiləri və coğrafiyaşünaslarının (əl-İstəxri, ibn Havqəl, əl-Məqdisi, ət-Təbəri, əl-Məsudi və b.) əsərlərinə əsaslanaraq Fərabinin vətəni haqqında belə məlumat verir: «Kenciddən aşağıda yerləşən Fərab Sır-Dərya çayının hər iki tərəfində yerləşib, uzununa və eninə bir günlüyə qət edilən yoldur... Fərabın yanında Sır-Dəryanın sol sahilində Syutkənd şəhəri yerləşir, burada yaşayan əhali islam dinini qəbul etmiş türk oğuzları və karluqlarından ibarət idi». Bəzi müsəlman mənbələrində göstərilir ki, Fərab Vəcic şəhəri əsasında yaranmışdı. Bu ehtimalı əsas götürən V.V.Bartold Fərabinin vətəninin Vəcic olduğunu göstərir. O zaman bura daha möhkəmləndirilmiş yaşayış məskəni olub məscidi vardı, və əmir Vəcicdə yaşayırdı. Fərabinin babası Zoluq islamı qəbul etməmiş türk idi, onun atası Məhəmməd həbsxana gözətçisi olmuşdu. Bir türk mənbəyində göstərilir ki, Fərabinin adı onun doğulduğu yerin adıdır, onu həm də «Əbu-Nəsr» adlandırırlar. Çox vaxt onun adına «Ət türki» sözü də əlavə edilir ki, bu da onun türk mənşəyi ilə bağlı olduğunu sübut edir.

IX əsrdə Sır-Dərya sahillərinə qədərki ərazidə islam dini yayılmışdı. Fərab şəhəri də daxil olmaqla bu ərazi islamın təsir dairəsinin təxminən sərhəddi idi. Fərabdan şimalda müsəlmançılığı (islamı) qəbul etməyən köçəri türk xalqları yaşayırdılar. Bu yerlər o zaman ərəb xəlifəsindən asılı olan Samani valisinin mülkləri – torpaqları idi ki, burada Samanilərin hökmranlığı tədricən güclənirdi. Sonralar bu ərazi xilafətdən ayrılaraq müstəqil Samani feodal dövləti kimi yaranıb inkişaf etməyə başlamışdı. Sır-Dərya sahillərində, o cümlədən Fərabda yaşayan türk qəbilələri əsasən karluqlardan və oğuzlardan ibarət idi. Samanilər dövlətinin onlara verdiyi torpaqların əvəzinə onlara Samanilərin mülklərini şimaldan olaraq türk hücumlarından qorumaq tapşırılmışdı.

Ərəb coğrafiyaşünaslarının mənbələrinə əsaslanan akad. Y.E.Bertels göstərir ki, islam Vəcicdə 839-840-cı illərdə qəbul edilmişdi. Onun ehtimalına görə, islamı yalnız Fərabinin atası

qəbul etmişdi, onun babası isə müsəlman (islamı qəbul etməmək mənasında) deyildi. Buradan belə nəticəyə gəlmək olar ki, Fərabi türk hərbi qəbilələrinin oğuz və ya karluq ailəsində doğulmuşdu və onların ailəsi sonralar Fərab şəhərinə köçmüşdü. Tarixi faktlara görə, islama qədərki dövrə kimi istər oturaq və istərsə də köçəri türklər arasında Mani dini təriqəti geniş yayılmışdı. Fərabdan şimalda isə islama qədərki dövrə kimi xristianlığı qəbul etmək təbliğatı aparılırdı. Hətta, o zaman Təlasda (Talasda) xristian kilsəsi vardı ki, sonralar o məscidə çevrilmişdi. Fərabinin anadan olduğu Fərab şəhərindən əlavə Mavərənnəhrdə Fərab adlı daha iki kənd olmuşdu. Bunlardan biri təxminən indiki Cərco şəhəri ilə üzbəüz Amu-Dəryanın sahilində, ikincisi isə Səmərqənd şəhərinin cənub-şərqində idi. Bir sıra ilk mənbələrdə Əbu-Nəsrin doğulduğu yer haqqında düzgün olmayan məlumatlar verilsə də, qətiyyətlə deyə bilərik ki, onun vətəni Sır-Dərya çayı sahilindəki Fərab şəhəri olmuşdu.

Əl-Fərabi ilk təhsilini Fərabda almışdı. Bağdada köçənə qədər o, ərəb dilini bilməmiş, əvvəl türk və yaxud soqd dilində oxumuş, sonra ərəb dilini öyrənməyə başlamışdı.

Əl-Fərabinin dövründə xalqın mübarizə ruhu və azadlıq ideyaları çox güclü idi və şübhəsiz ki, bu, gələcək alimin dünyabaxışının formalaşmasına öz təsirini göstərmişdi.

Fərabi Mərkəzi Asiyadan Bağdada gələnə qədər Şaşda və Səmərqənddə olmuş, bir müddət Buxarada oxumuş və işləmişdi. Bağdada gedərkən o, yolüstü xilafətin br sıra şəhərlərində – İsfahan, Həmədan, Rey, Tehran və b. yerlərdə olmuşdu. Onun Bağdad şəhərinə yola düşməsi və şəhərə gəlməsinin tarixi dəqiq deyil. Bir sıra mənbələrdə götərilir ki, o, Bağdada xəlifə Müqtədrin zamanında (908-932) köçüb yerləşmişdi. Akad. V.V.Bartoldun qeyd etdiyinə görə, IX-X əsrlərdə elmi qüvvələrin fəaliyyəti Dəclə və Fərat çayları hövzəsində yerləşən qədim mədəniyyət mərkəzləri Bəsrə və Horranda cəmləşsə də, yunan elmi Antioxdan «köçürülərək» xilafətin mərkəzi Bağdadda «yerləşdirilmişdi». Bağdad müsəlman dünyasının ən müxtəlif əyalət və vilayətlərindən, ilk növbədə İran və Mərkəzi Asiyadan daha

çox alimləri özünə cəlb edirdi. 762-ci ildə əsası qoyulmuş bu şəhər yalnız hakimiyyət, ticarət yolları və zənginlər paytaxtı deyil, eyni zamanda bütün xilafətin mədəni həyatının və elmi fikrinin mərkəzi idi. Bağdadda öz elmi tədqiqatları ilə şöhrət qazanmış və orada xeyli müddət çalışmış Mərkəzi Asiyanın, İranın, Qafqazın müsəlman ziyalıları və görkəmli mütəfəkkirləri Xarəzmi, Fərqanəni, Ət Türki, Battani, Sufi, Əbu-Məşər, Nəzzam, Rəvəndi, habelə çoxlu tarixçilər, coğrafiyaşünaslar, ədəbiyyatçı-dilçilər və şairlər çalışmış, yaşayıb-yaratmışlar.

Xəlifə Harun Ər-Rəşidin, xüsusilə xəlifə Məmunun zamanında elmin və yaradıcı fikrin inkişafı üçün əlverişli şərait yaradılmışdı. Bu dövrdə söz azadlığı, yüksək hakimiyyət dairələrində müxtəlif dini və elmi təlimlərə olan maraqla əlaqədar xəlifələr yanında sarayda təşkil edilmiş müzakirələr və elmi mübahisələr-diskussiyalar təşkil edilirdi. O zaman Bağdadda müxtəlif millətləri təmsil edən çoxlu elmi istiqamətlər və elmi məktəblər fəaliyyət göstərirdi.

Xəlifə Müqtədirin hakimiyyətə gəlməsi ilə islamda ortodoksal sünniçilik təriqətinin möhkəmlənməsi üçün ciddi siyasi xətt götürülür, bütün dini təriqətlər və elmi cərəyanlar, azad fikirli alimlər sıxışdırılır. Dövlət siyasətinin həyata keçirilməsində mühafizəkar din xadimləri həlledici rol oynamağa başlayırlar.

Bağdada gəlməsi ilə orta əsrlər elminin müxtəlif sahələrinin və ərəb dilinin öyrənilməsinin daha da təkmilləşməsi ilə ciddi məşğul olmağa başlayan əl-Fərabi burada müxtəlif dini baxışlara və tarixi-fəlsəfi əqidələrə malik olan insanlarla görüşüb tanış olur, yunan dilini xristian Əbu Bəşir Məttadan, təbabəti və məntiqi və Aristotelin «İkinci Analitika» əsərini həkim-xristian Yuhənna Haylan Kunandan öyrənməyə başlayır. Fərabi əsasən nəzəri və dəqiq elmlərlə – riyaziyyat, musiqi nəzəriyyəsi, məntiq, nəzəri təbabət və b. elmlərə maraqlanır, eyni zamanda filologiya, poeziya, xüsusilə ərəb dili, ədəbiyyatı, tarixinə də maraq göstərir. Mənbələrin məlumatına görə o, ərəb dili ilə yanaşı İran, yunan, Suriya və bir çox dilləri mənimsəyir. İran tarixçisi Dehhudonun

«Lüğətnamə» əsərinə istinad edən görkəmli özbək alimi akad. M.Xayrullayev yazırdı ki, Fərabi 70-dən artıq dil bilirdi.

İlk mənbələrdən məlum olur ki, Fərabi ixtisasca həkim olub, lakin sonradan bu peşəni atıb dünyəvi elmlərlə və müəllimliklə məşğul olmağa başlamışdı. Belə bir pəvayət söyləyirlər ki, bir dəfə yaxın adamlarından biri ona saxlamaq üçün çoxlu kitab verir, onların arasında Aristotelin traktatları da varmış. Fərabi asudə vaxtlarında onları oxumağa başlayır və bu kitablar onu o qədər maraqlandırır ki, xidməti vəzifəsini buraxır. Bu hadisə onun həyatında, taleyində, böyük alim olmasında mühüm rol oynamış olur.

Bağdad həyatı Fərabinin görkəmli ensiklopedist alim, böyük filosof, humanitar elmlərin bilicisi kimi məşhurlamasında mühüm rol oynayır. O, müəllimliklə yanaşı elmi yaradıcılıqla məşğul olur. Lakin X əsrin əvvəllərindən başlayaraq Bağdadın siyasi və mədəni həyatında geriləmə, durğunluq müşahidə edilməyə başlanır. İraq və İranda şiə hərəkatı, Bəhreyn və Misirdə ismailiyyə və karmat çıxışları, xilafətin müxtəlif əyalətlərinin müstəqillik əldə etmək cəhdləri Abbasilər sülaləsinin paytaxtı Bağdadın siyasi və mədəni həyatına təsir edir. Xəlifə Mütəvəkkilin dövründə irticaçı din xadimlərinin ölkənin siyasi və mənəvi həyatında rolunun güclənməsi ilə əlaqədar mütərəqqi fikirli adamların təqib olunması güclənir. 922-ci ildə Bağdadın mərkəzi meydanında İbn-Həllac edam olunur. İslamın dini təriqətlərindən üz döndərən ortodokslar təqib olunmağa başlanır, onların əsərləri qadağan olunur, özləri isə yeres elan edilib Müqəffə, Ən-Nəzzam, Rəvandi, Razi, Kindi və b. meydanlarda açıq şəkildə yandırılırlar. Fərabi bu terror şəraitinə və təqiblərə dözə bilməyib Bağdadı tərk etməyə məcbur olur.

Fərabinin Bağdaddan Mərkəzi Asiyaya qayıtması XVII əsrin iki türk müəllifinin əsərində qeyd olunmuşdur. Bunlardan biri A.Abnandır. O, XV əsrdə yaşamış Molla Lütfinin «Kəşf-ül-zünun» əsərində qeyd edirdi ki, o, Türküstana qayıdaraq Samani hökmdarı Mənsur ibn-Nuhun xahişi ilə «Əl-təlim-əs-sali» («İkinci təlim») əsərini yazmışdı. Burada «Müəllim əs-sani»

(İkinci təlim – yəni Aristoteldən sonra Şərqin «ikinci müəllimi» ləqəbi ilə məşhur oln əl-Fərabinin bu əsəri İsfahanın «Suvan-ül-hikmə» kitabxana sında saxlanılır. Sonralar İbn-Sina bir sıra fəlsəfi və tarixi məsələləri öyrənmək məqsədi ilə ondan istifadə etmişdi. Bu «Movzuotul ulum müffüs saadat» (İstanbul, 1895, türk dilində) əsərində məlumat verilir. A.Abnan qeyd edir ki, Fərabinin Türküstana gəlməsi bundan başqa heç yerdə göstərilmir. Əksinə, onun Dəməşqə getməsi və Dəməşq dövrü demək olar ki, onun bütün tərcümeyi-halını yazanlar tərəfindən qeyd edilir.

Bir sıra müsəlman mənbələrinə istinad edərək demək olar ki, Fərabi 330-cu ilin hicri ayında (941-ci ildə) Dəməşqə gələrək burada elmi yaradıcılıqla məşğul olmağa başlayır. Bir sıra ədəbiyyatda nəql edilir ki, o, burada şəhər ətrafında gündüzlər bağ gözətçisi işləməyə məcbur olmuş, axşamlar isə şam işığında elmi işlə məşğul olmuşdu. Fərabi burada 942-ci idə özünün fundamental əsəri «Kitab-əl əxl əl-mədəniyyə əşl-fozilə» (Xeyirxah şəhər əhalisinin görüşləri haqqında kitab) əsərini yazmağa başlamışdı. Lakin alim tezliklə Hələb (Aleppo) şəhərinə gəlir, hökmdar Seyfüldövlə Həmd Hamidin (943-967) hörmətini qazanaraq ömrünün axırına kimi orada qalır.

Hələb hökmdarı Həmd Hamid digər hökmdarlar kimi işğalçı müharibələr aparsa da, dövrün digər təhsil görmüş hökmdarları kimi öz ölkəsinin paytaxtını mədəni mərkəzlərdən birinə çevirməyə çalışırdı. O zaman Hələbdə çoxlu şairlər, alimlər yaşamış və hökmdar onlara himayədarlıq edərək maddi və mənəvi kömək göstərmişdi.

Həmd Hamid əyalətin başqa dövlət-şəhər baçılarından azadfikirliliyi ilə fərqlənmişdi. Onun sarayında elm adamları, şairlər öz fikirlərini müstəqill sürətdə söyləyə bilmişlər. Akad. İ.V.Kraçkovski göstərirdi ki, «onun yanında müxtəlif ölkələrdən olan şairlər Əbu-Firas, Əbül-Abbas, Ən-Naşi, ər-Raffi, İbn-Nnubata, ər-Raki Abdullah ibn-Xalaveyhi, Əbu-əl-Tayib əl-Lüqavi, əl-Fərisə və b. vardı. Onların əksəriyyəti şiə-Əli proqramı ilə ayrılırdı».

Doqquz il Seyfuldövlə Həmd Hamidin sarayında yaşayan və islama skeptik cəhətdən yanaşan görkəmli şair Mütənnabi öz azad fikirliliyi ilə fərqlənidi. Tədqiqatçılar onun həyatının bu dövrünü daha məhsuldar hesab edirlər. Hələbdə təhsil aldığı illərdə Fərabi də Mütənnabinin və Böyük Maninin poeziyasının güclü təsiri altına düşmüşdü. O zaman Hələbdə çoxlu tarixçilər və tarixşünaslar, coğrafiyaşünaslar və ədəbiyyatçılar da vardı. Buraya o zaman uzaq Xarəzmdən tanınmış yazıçı Əbu-Bəkr əl-Xarəzmi də gəlmişdi. Bəzi ehtimallara görə, Mütənnabi və Fərabi bir-birilərini tanıyırdılar.

Mənbələrin məlumatına görə, Fərabi saray almi olmamış, həmişə Hələbdə yaşamışdı. O, buraya Dəməşqdən gəlmişdi. O zaman Dəməşq əsasən Misir hökmdarına tabe idi. Lakin 946-947-ci illərdə bu şəhər Seyfüldövlənin əlinə keçmişdi. Çoxsaylı faktlar sübut edir ki, Fərabi ona göstərilən şərəf və hörmətə baxmayaraq qüdrətli hökmdar-himayədardan heç vaxt asılı olmamış, onun bəxşiş və köməyini qəbul etməmişdi. Ümumiyyətlə, Fərabi son dərəcə təvazökar olub aza qane olan adam olmuş, olduqca sadə geyinər və özünü həmişə tək hesab edərdi.

Hicri tarixinin 337-338-ci ilində (miladi 949-950) Fərabi Misirdə olmuşdu. Onun nə məqsədlə Misirə getməsi məlum deyil. Bu vaxt Misirdə ismailiyyə hərəkatı geniş yayılmışdı. Türk alimi A.Ataş qeyd edir ki, Misirdə Fərabi bir daha yuxarıda adını qeyd etdiyimiz əsərini nəzərdə keçirir, onu fəsillərə bölür. Dahi insan və mütəffəkkir Fərabinin yaradıcılıq təkamülü iki mərhələdən ibarət idi. İlk mərhələ onun dünyagörüşünün formalaşdığı, ikinci mərhələ isə artıq kamil və orijinal mütəfəkkir kimi yetişdiyi dövrdür. Fərabi əsərlərini iki qrupa bölmək olar: 1) Şərhlər şəklində qədim yunan müəlliflərinin əsərlərinə yazdığı izahlar; 2) Orijinal məzmun və formada orta əsr təbiətşünaslıq problemlərinə, ictimai-siyasi və fəlsəfi fikirlərə həsr olunan aktual əsərlər onun riyaziyyat, fizika, kimya, tibb, təbiətşünaslıq, biologiya, astronomiya, məntiq, fəlsəfə, tarix, coğrafiya, tarixşünaslıq sahəsinə, ümumiyyətlə, elmin bütün problemlərinə həsr

etdiyi son dərəcə geniş məzmunlu və lakonik əsərləri dünya elm və mədəniyyət tarixinə böyük töhfədir.

Fərabinin ölümü haqqında iki mülahizə var, biri ondan ibarətdir ki, o təbii ölümlə, yəni yaşının çox olmasına, qocalığına görə Dəməşqdə dünyasını dəyişmişdi. İkinci versiyaya görə, bir neçə adamla Əskəran şəhərinə yola düşdüyü vaxt silahlı quldur dəstələri tətrəfindən səhrada öldürülmüşdür. Bundan xəbər tutan Hələb hökmdarı Seyfüldövlə öz yaxın adamları vasitəsilə Fərabinin meyidini gətirib Hələb şəhərində ata və anasının yanında dəfn etdirmiş, həmin quldurları isə tutub edam etdirmişdi.

XVIII əsr «Məcmu-əl-övliyyə» kitabının müəllifi Əli Əxbar Hüseynin yazdığına görə, Fərabi Seyfüldövlənin ən yaxın adamları tərəfindən din xadimlərinin iştirakı olmadan və dəfn duası oxunmadan basdırılmışdı. Buna səbəb isə din xadimləri tərəfindən onun kafir elan oluması idi. Onun ölümü haqqında «Dövrətül Maarif» əsərinə istinad edən bir sıra tədqiqatçılar bu ölümü Fərabinin müasiri Seyfüldövlənin sarayında onun müəllimi olmuş böyük şair və demokrat Mütənnabinin ölümü ilə əlaqələndirir. Belə ki, Mütənnabi də Şirazdan hökmdar Əzut-ət-Dövlənin yanına gedərək Fərabi kimi yolda quldurlar tərəfindən öldürülmüşdür. Lakin hər iki ehtimalı təsdiq və ya inkar edən faktlar əlimizdə yoxdur. Lakin Mütənnabi və Fərabinin talelərinin bəzi anlarının yaxınlığı və dəfn edilmələri arasındakı oxşarlıq (Mütənnabi və Fərabi Şiraz hökmdarı Əzut-ət-Dövlənin göstərişi ilə çox şərəf və təntənə ilə dəfn edilmişdi) bizə onların eyni ideya istiqamətinə xidmət etmələrini söyləmyə əsas verir. Bir çox mühafizəkar din xadimləri Fərabinin yeretik təriqətə mənsub olmasında inad etmişlər. Bu baxımdan mühafizəkar din xadimlərindən fərqli olaraq bir sıra müsəlman müəllifləri Fərabini islamın qayda-qanunlarının müdafiəçisi, həqiqi müsəlman olmasını, yəni islamın bütün adət-ənənlərinə riayət edən bir şəxs kimi təqdim edirlər. Məsələn, Əli Əxbar Hüseyn qeyd edir ki, din xadimləri Fərabinin əsərlərinin həqiqi məqsədini başa düşmədiklərindən onu kafir adlandırmışlar.

XVI əsrin tarixçisi Əbülqaffar Qəzvini Fərabini müsəlman hüququ qanunlarına hörmət və riayət edən, şəriətin bütün yazılarına əməl edən müsəlman kimi göstərmiş və onun Mərkəzi Asiyadan getməsinin səbəbini müsəlman dünyasının müqəddəs şəhərləri olan Məkkə və Mədinəni ziyarət etmək məqsədi daşıdığını qeyd etmişlər.

Göstərilən bu və ya digər mənbələrdə Fərabi haqqında bir sıra əfsanələr və nağıllar da mövcuddur. Akad. M. Xayrullayev yazır ki, Əbu Nəsr çox zaman adamlardan uzaq gəzirdi, həmişə təbiətdə olardı, çox yaşıllıq və su olan yerdə yaşayardı, dərs deməklə məşğul idi, traktatlar və izahlar yazardı. Əbu Nəsr xeyixah adam idi, öz dünyasına və yaşayışına fikir verməzdi, çox sadə yaşayardı. Nəql edirlər ki, Seyfüldövlə Fərabiyə böyük hörmət və nəzakətlə yanaşardı. O, əmr etmişdi ki, Fərabiyə xəzinəsindən istədiyini versinlər. Lakin Fərabi bundan imtina etmiş və hər gün 4 dirhəm almaqla kifayətlənmişdi.

Bir gün Fərabi Dəməşq bazarıa gedir və görür ki, boybuxunlu, yaraşıqlı çəkməçi oğlan dərini dişləri ilə dartıb hamarlayır. Fərabi ondan soruşur: sən ki, belə ürəklə işləyirsən, gündə nə qədər alırsan. Oğlan cavab verir: iki dirhəm. Fərabinin ona yazığı gəlir, hökmdardan aldığı 4 dirhəmi ona verir. Rəvayətə görə, həmin şəxs Fərabinin yaxından köməyi sayəsində tanınmış alim olur.

Bir dəfə Fərabindən soruşurlar: Kim çox bilir, sən, yoxsa Aristotel. O, cavab verir: mən o dövrdə yaşasaydım onunla görüşüb yanında məşğul olardım, ola bilsin ki, onun yaxşı şagirdi olardım.

Fərabi təsadüfən hökmdar Seyfüldövlənin Dəməşqdə alimlərin məclisini keçirdiyi zaman saraya gəlir. O, hökmdardan içəri girməyə icazə istəyir. Hökmdar ona oturmağı təklif edir. Fərabi türk dilində soruşur: «Harada əyləşim. Sizə layiq ola yerdə oturum, yoxsa özümə layiq olan yerdə.» Hökmdar cavab verir: «Özünə layiq olan yerdə»... Onda Fərabi bütün əmirlərin yanından keçib şahın taxt-tacının yanında oturur. Hökmdar əsəbiləşir və cangüdənlərə gizli dildə deyir: bu türk bütün əxlaq

və nəzakət qaydalaını pozdu, ona görə də, məclis qurtaranda və o ayağa qalxanda onu tərbiyəsizliyinə görə cəzalandırın. Cangüdənlər belə də edirlər. Bu zaman Əbu Nəsr soruşur: Mən bir cinayət etməmişəm, nəyə görə cəzalandırılıram. Bu sualı eşidən hökmdar əsəbi halda soruşur: Xalq arasında bu dili heç kim bilmir, bunu sən harada və kimdən öyrənmisən. Fərabi cavab verir: Mən bir çox dilləri öyrənməli olmuşam. Bu zaman oturan alimlərdən biri ona sual verir və toplaşanlar arasında diskussiya başlanır. Heç kəs bu suala cavab verə bilmir. Fərabi öz fikirlərini izah edir və hər kəs onunla mübahisə etməyə cəsarət etmir. Bu vaxt hökmdar soruşur: Sən «ikinci müəllim» (yəni Fərabi) deyilsən ki? Fərabi onun bu sualını təsdiqləyir. Onda hökmdar onu təhqir etdiyinə görə üzr istəyir. Fərabi isə hökmdara sağlamlıq arzu edir. Hamı dağıldıqdan sonra hökmdar musiqiçiləri otağa dəvət edir. Əbu Nəsr onlarla musiqi haqqında sənətkar kimi söhbət edir, təəccüb edən şah soruşur: məgər müəllimlər müəlliminin müsiqi məsələlərindən başı çıxır? Fərabi onun fikrini təsdiq edir. Onda hökmdar nökərlərinə çırağı (simli müsiqi aləti) gətirməyi əmr edir. Fərabi bu alətlə müxtəlif melodiyaları çaldıqdan sonra hökmdar heyrətə gəlir. Ondan ömürlük sarayda qalmağı və özünün şərəfi ilə alimlər məclisini bəzəməyi xahiş edir. Əbu Nəsr razı olmur, nəhayət hökmdarın dəfələrlə xahiş və təkidlərindən sonra bir il müddətində sarayda qalmağa razı olur.

Nəql edirlər ki, Fərabinin alimliyi, bacarığı və ləyaqətindən xəbər tutan İranın Buidlər feodal dövlətinin vəziri Sahib Abbad ona çoxlu hədiyyələr göndərir və saraya öz yanına dəvət edir. Lakin Fərabi bu bəxşişləri qəbul etmir və hətta onun xahişinə cavab vermir. Bir dəfə o, həmin vəzirlə görüşmək, onun gördüyü xeyirxah işlər və haqqında eşitdiyi təriflərlə tanış olmaq üçün Reyə gəlir. Fərabi sadə geyindiyndən alim kimi heç kimin diqətini cəlb etmir, heç kəs onu tanımır. O, bir müddət oturduqdan sonra məclis başlayır. Torbasından bir neçə çubuq çıxarıb düzəltdiyi musiqi aləti üzərində müxtəlif melodiyalar ifa etməyə başlayır. Musiqinin ilk hissəsi şən olduğundan hamı şənlənməyə başlayır, ikinci hissə qəmli, kədərli olduğundan

hamı bikef olur, üçüncü hissəni eşidəndə hamı yatır. Fərabi çaldığı alətin dəstəyinə qeyd yazıb sarayı tərk edir. «Sizə Fərabi gəlmişdi, sizi güldürdü, ağlatdı və yatırdıb getdi». Vəzir ayılanda kədərlənib deyir: «Səadətin sirrini açmağa imkan tapmamış, o yoxa çıxdı». Fərabini nə qədər axtarırlar, tapa bilmirlər. İkinci müəllim isə həmin gün Bağdada yola düşmüşdü. Deyirlər ki, o, çox cəld və cəsarətli adam idi, çox yaxşı ox atırdı və həmişə onun oxu hədəfə düz dəyərdi.

Göstərilən bu nümunələr onun böyük istedad və bacarığa, dərin əqlə və nüfuza malik olduğunu bir daha sübut edir. Şərqin böyük alimi Fərabi yüksək insani keyfiyyətlərə malik idi, varlanmağa meyl etməzdi, yüksək vəzifələr axtarmazdı, dünyanın güclüləri qarşısında əyilməz və çəkinməzdi, adi və sadə idi, insanların ilk müraciətində onlara kömək etməyə hazır olmuşdu. Xilafətin mədəni, zəngin və varlı şəhərlərində yaşayarkən belə Fərabi öz vətənini heç vaxt unutmamışdı.

Fərabi zəngin yaradıcılıq irsi qoymuşdu. Onun əsərlərinin ümumi sayı və həcmini müəyyən etmək çətindir. Demək olar ki, bütün Şərq və Qərbi Avropa tarixçiləri, filoloqları, filosofları onun əsərlərinin-traktatlarının kəmiyyətini müəyyən etməkdə vahid fikrə gələ bilməmişlər. İlk mənbələrin məlumatına görə, Fərabinin əsərlərinin sayı 80-130 arasındadır. Görkəmli türk alimi A.Atəşin Fərabi yaradıcılığına həsr etdiyi biblioqrafiyada, habelə İstanbul kitabxanalarında, əlyazmalar fondunda və kitabsaxlama köşklərində Fərabinin 160 əsəri olduğu qeyd edilir.

Müsəlman müəllifləri hələ ilkin orta əsrlərdə Şərqin müxtəlif ölkələrində Fərabinin işlərinə rast gəlmiş, əlyazmalarının üzü dəfələrlə köçürülmüşdü. XII əsrin görkəmli tarixçisi Əbülhəsən Beyhaki yazırdı ki, mən Rey şəhərinin «Nakibun-Nkabi» kitabxanasında Əbu Nəsrin bir sıra nadir kitabını görmüşəm, bunların çoxu Fərabinin özü tərəfindən yazılmış, yaxud onun şagirdi Əbu Zəkəriyyə Yəhya bin-Adnin əli ilə köçürüldüyü əsərlədən ibarət idi.

XV əsrin İran tarixçisi Mirsəid «Rövzətüs -Səfo» əsərində göstərir ki, Buxarada «Nuh Ben Mənsur-Samani» kitab-

xanasında Fərabinin olduqca çoxlu naməlum əsərləri vardı ki, Əbu ibn-Sina onlardan istifadə etmişdir. Türkiyənin təbabət sahəsində görkəmli tarixçisi Süheyl Ənvər şahidik edir ki, İsfahanın «Suvan-ül-hikma» kitabxanasında Fərabinin öz əli ilə yazdığı «Ət-təlim əs-sani» əlyazması saxlanılır.

Əli Əxbar Hüseynin dediyinə görə, Fərabi əsərlərindəki fikirlər yunanların rəyi olub Fərabiyə məxsus deyil, yeretik yunan müəlliflərinə aiddir.

Fərabinin ictimai-siyasi və tarixi baxışları, onun cəmiyyət və dövlət haqqında ideyaları tədqiqatçıların araşdırma obyekinə çevrilmişdir.

## 1.4. Əl-Fərabinin ictimai-siyasi baxışları. Onun cəmiyyət və dövlət haqqında ideyaları

Orta əsrlərin mütəfəkkirləri içərisində ilk dəfə olaraq əl-Fərabi ictimai-siyasi həyatın öyrənilməsi problemini, onun xüsusiyyətlərini və strukturunu müəyyənləşdirməyə çalışmış və bu məsələni özünəməxsus ustalıqla şərh etmişdi.

Fərabi yaradıcılığında ictimai həyat haqqında təlim «İlm əl-mədəniyyə» (şəhər dövləti) başlıca yerlərdən birini tutur. İctimai quruluş nəzəriyyəsinə bir sıra əsərlər («Xeyirxah şəhərin sakinlərinin görüşləri haqqında traktat», «Səadət, xoşbəxtliyə nail olmaq haqında kitab», «Dövlət xadiminin aforizmi», «Xoşbəxtliyin yolunun göstərilməsi» və s.) həsr etmişdi. Fərabinin orta əsrlər dövründə işləyib hazırladığı nümunəvi cəmiyyət haqqında ardıcıl təlimi hamı tərəfindən qəbul edilmişdi. Fərabi bu təlimi yaradarkən yunan ictimai fikrində, xüsusən Aristotel və Platonun siyasi və etik baxışlarından, habelə qədim Şərqin sosial və siyasi ideyalarının nailiyyətlərindən istifadə etmişdi. Qərb tarixşünslığında Fərabinin sosial-siyasi baxşlarına müxtəlif mövqedən qiymət verilmiş, əksəriyyət müəlliflər onu islam ideologiyası mövqeyindən qiymətləndirmişlər. Bəzi əsərlərdə onun icti-

mai-siyasi fikir tarixindəki yerinə obyektiv qiymət verilməsi cəhdləri də olmuşdur.

Orta əsrlərin müsəlman Şərqinin mütəfəkkirlərinin ictimai-siyasi təlimləri tarixində Fərainin ictimai-siyasi baxışları özünəməxsus yer tutur. İctimai həyat haqqında Fərabi ideyalarını tədqiq edib öyrənmədən orta əsrlərin siyasi nəzəriyyələri tarixini təsəvvür etmək mümkün deyildir. Bu münasibətlə sovet alimləri tərəfindən yazılan bir sıra elmi əsərlər bu sahədə mühüm roll oynayırlar.

İctimai həyatın öyrənilməsi baxımından Fərabinin baxışlarında 1) İctimai həyatda elmin rolu və vəzifələrinin müəyyən edilməsi; 2) İctimai birliklərin yaranması, tərkibi, quruluşu və növləri, onların düzgün olmayan cəhətlərinin tənqidi; 3) Şəhər-dövlət birliklərinin xüsusiyyətləri, dövlət və onun idarə edilməsi formaları; 4) İnsanın cəmiyyətdə yeri və vəzifələri, əmək fəaliyyəti, əxlaqı və tərbiyəsi; 5) Dövlət qurumlarının son məqsədi, xoşbəxtliyə çatmağın yolları və üsulları mühüm yer tutur.

Fərabi əsas diqqətini vətəndaş elmlərinə («İlm əl-mədəniyyə») yönəltmişdi. İctimai həyat və dövlət problemlərinə həsr etdiyi əsərlərində siyasi, hüquqi, etik və pedaqoji görüşləri kompleks şəklində əks olunmuşdur. Müsəlman ideologiyasına (dini kəlamlara) həsr etdiyi bölmələrdə Fərabi başlıca diqqətini siyasi elmlərə vermiş və onun öyrənilməsi ilə məşğul olmuşdu. Bu əsərlərdə müxtəlif qrupların şüurlu fəaliyyəti, adətləri və əxlaq normaları, təbii meylləri və xarakteri haqqında onun mülahizələri və çıxardığı nəticələr maraq doğurur.

Dövlət idarəçiliyindən bəhs edən Fərabi onun iki növdən ibarət olduğunu qeyd edir. Xalqı həqiqi xöşbəxtliyə aparan əsas dövlət idarəçilik sistemini ilkin növ dövlət forması kimi qəbul edən Fərabi xalqı yalançı xöşbəxliyə, illüziyalara aparan dövlət idarəçilik növünü ikinci növ dövlət forması hesab edərək təhlil və tənqid edir.

Fərabi etika və pedaqogika elmlərini müstəqil elm hesab etməyərək onları siyasi elmlərin tərkib hissəsi saymışdı.

Cəmiyyətin meydana gəlməsi problemi Fərabini daim düşündürmüşdü. O, müharibə və zorakılıq yolu ilə insanların vahid şəkildə birləşməsini qəbul etməmişdi. İnsanların birliyinin əsas səbəblərini onların maddi ehtiyaclarını ödəmək məqsədilə birləşdikləri tezisini irəli sürərək cəmiyyətin yaranması, daha da yüksəlməsi və təkmilləşdrilməsi üçün birləşdiklərini elmi cəhətdən əsaslandırmışdı. Fərabi cəmiyyətin yaranmasında insanın əmək fəaliyyənin həlledici rol oynadığını ön palna çəksə də, insanın sosial təbiətini aça bilməmişdi. Fərabiyə görə, insan cəmiyyəti bir neçə xalqdan ibarətdir ki, bunlar da bir-birindən adətləri, əxlaqı və dili ilə fərqlənir. Müxtəlif xalqların xarakter və mənəviyyatının coğrafi mühitlə bağlı olduğunu bildirərək cəmiyyəti böyük və kiçik cəmiyyətlərə bölür.

Fərabi ideal cəmiyyəti sağlam insan orqanizminə bənzədir. Bu cəmiyyətdə – orqanizmdə bütün orqanlar qarşılıqlı əlaqədə olub, yaşamaq və fəaliyyət göstərmək üçün bir-birinə kömək edirlər.

Fərabinin yaşadığı ilkin orta əsrlər dövründə cəmiyyətin həyatında ticarət, mədəniyyət və dövləti idarə etmək mərkəzləri kimi şəhərlərin rolu artmışdı. O, şəhər-dövlətləri xeyirxah, yaxud ideal («Əl-mədinə»), («Əl-fəzilə») və cəhalət, nadanlıq («Əl-mədinə», «Əl-cahiliyə») kimi iki qrupa bölürdü: bəd işlər baş verən şəhərləri cəhalət, insanların qarşılıqlı birlik və əməkdaşlığına xidmət edən şəhərləri xeyirxah, xoşbəxt şəhərlər adlandırırdı. Onun fikrincə xoşbəxt şəhərlərin əhalisi hər cür xöşbəxtliyə və nailiyyətlərə layiqdirlər. O həm də, bu xoşbəxtlik və bədbəxtlikləri feodal hökmdarlara, onların xeyirxah və bədxah əməlləri və fəaliyyətləri ilə əlaqələndirirdi. Xalqı sonsuz müharibələrə, ölkəni fəlakət və dağıntılara aparan, öz şəxsi məqsədləri üçün onları ağır vəziyyətə salan hökmdarları tənqid və ifşa edirdi. O, yer üzərində sülh və ədalətin olmasını, bütün xalqların vahid birliyini və dostluq arzu edirdi.

Fərabinin əsərlərində feodal cəmiyyətinin mürəkkəb sinfi strukturu öz əksini tapmışdı. O, idarəetməni və tabeçiliyi, ideal şəhərin təşkilati strukturunu bir neçə qrupa ayırırdı. Fərabi ya-

zırdı: «Şəhərdə müəyyən adamlar şəhər başçıları və onların göstərişlərini həyata keçirən, tutduqları vəzifə və bacarıqlarına görə fərqlənən şəxslər birinci dərəcəyə aiddirlər. Onlardan aşağıda duran adamlar birincilərin arzu və məqsədləri ilə əlaqədar hərəkət edirlər ki, onlar ikinci qrupa daxildirlər. Onlardan sonra gələnlər sonuncuların (ikinci qrupun) məqsədlərini həyata keçirənlərdir. Nəhayət, aşağı təbəqəyə malik olan sıravi şəhər adamları var ki, onlar əvvəlki təbəqələrin göstərişlərini yerinə yetirirlər». Burada Fərabi cəmiyyətdə müxtəlif sinifləin və təbəqələrin şəxsi keyfiyyətlərini və qarşılıqlı əlaqələrini göstərirdi. O, həm də əkinçilik və maldarlıqla məşğul olan kəndlilərin, sənətkarların, din xadimlərinin, ruhanilərin, fiziki və mənəvi əməklə məşğul olan digər sinfi təbəqələrin olduğunu xatırladırdı.

Şəhər və ya dövlət başçısının həyatda əldə etdiyi keyfiyyətlərdən bəhs edən Fərabi onda (şəhər başçısında) dərin əqli və digər intellektual mənəvi və əxlaqi keyfiyyətlərin olmasının zəruriliyini əsas hesab edir, daha sonra onun digər keyfiyyətlərinə – mənsub olduğu nəslə və ailəyə, maddi imkanlarına diqqət yetirirdi.

Fərabi bir tərəfdən istismarı təbii hadisə hesab edir, digər tərəfdən quldarlığı, asıllılığı rədd edir, belə cəmiyyəti insanı hüququndan və ləyaqətindən məhrum edən qeyri-hüquqi cəmiyyət və idarəçilik sistemi hesab edirdi. Onun arzusu, tezisi yer üzərində vahid xeyirxah cəmiyyətin qurulmasının mümkünlüyü, bütün xalqların qarşılıqlı köməyinin zəruriliyndən ibarət idi.

Özünün ideal dövlət haqqında mülahizələrində Fərabi dövlətin daxili və xarici vəzifələrini dəqiq müəyyən edir. Fərabiyə görə, dövlətin daxili siyasəti ilk növbədə onun əhalisinin həqiqi xoşbəxtliyini təmin etməkdən, ölkədə ədalətin, haqqın bərqərar edlməsindən, xalqın əxlaqi-mənəvi və intellektual tərbiyəsi normalarını təmin etməkdən ibarət olmalıdır. Qalan digər problemlər: iqtisadiyyat və siyasət əsas vəzifəyə tabe edilməlidir. Dövlət yalnız iqtisadi problemlərlə fəaliyətini məhdudlaşdırmamalıdır. Fərabi siyasəti başlıca vəzifə kimi götürən dövlət başçılarını nadan və cahil adlandırırdı. O, hesab edirdi ki, dövlətinin

başçısının əsas vəzifəsi şəhər əhalisini düşmənin xarici hücumlarından qorumaq, şəhər-dövlətin etibarlı müdafiəsini təşkil etməkdir. Bir-birini qarşılıqlı şəkildə məhv etməyə səy göstərən dövlət başçılarını Fərabi heyvanat aləmi prinsiplərini əsas tutan, insanlığı ləkələyən hökmranlıq metodu hesab edirdi. O, müharibələri 2 qrupa: ədalətsiz və ədalətli müharibələrə bölürdü. Ədalətli müharibələr xeyirxah məqsədlə – xalqı asılılıq və köləlikdən azad etmək, xeyirxah şəhər-dövlətə qarşı, onun adamlarının malını-mülkünü tutmuş, talamış düşmənə qarşı aparılır. Ədalətsiz müharibələr ayrı-ayrı hökmdarların şəxsi məqsəd və maraqları üçün özgə xalqları və dövlətləri talan etmək, asılı vəziyyətə salmaq üçün aparılan savaşdır.

Fərabi dövlət idarəçilik formalarından danışırkən onu ikinci dərəcəli məsələ hesab edir və dövlətin başlıca vəzifəsini xoşbəxtliyə nail olmaqda görürdü. Fərabi ideal dövlət qurmaq üçün 12 tələbi vacib hesab edərək dövlət idarəçilik qaydalarını və qanunlarını bilməyi, bu qanunları yaradıcı şəkildə tətbiq etməyi bacarmağı, hərb incəsənətinə yiyələnməyi, ədalət və düzgünlüyü və s. kimi amilləri əsas hesab edirdi. Fərabi yaşadığı feodal monarxiyası mühitində dövləti idarə edən şəxsdə bu keyfiyyətlərin hamısının olmasını arzulasa da, bütün keyfiyyətlərin bir adamda cəmləşməsini mümkün hesab edirdi. Bu səbəbdən də, ona görə təbiətən istedadlı və bacarıqlı adamlara az təsadüf olunur, onlar azlıq təşkil edirlər.

Fərabi şəhər-dövlət başçısı və kollektivə rəhbərlik vəzifələrinə ziyalılar içərisindən çıxmış ləyaqətli və savadlı feodalların irəli sürülməsini məsləhət görürdü. Rəhbərlikdə ağıllı və təcrübəli adamın olmaması həmin şəhər-dövlətdə gec-tez fəlakətə, məğlubiyyət təhlükəsinə səbəb olardı. Buradan göründüyü kimi, Fərabi bir tərəfdən xilafətin hökmranlıq ənənələri və qaydalarına, peyğəmbər tərəfindən ideal cəmiyyət qurmaqla iradəli, ağıllı, istedadlı və güclü hökmdar tərəfdarı kimi çıxış edirdi. Fərabiyə görə hərcmərcliyin, anarxiyanın hökm sürdüyü şəhər-dövlətdə güclü və ədalətli hökmdara ehtiyac vardır. Lakin şəhər və dövlət başçısı öz təbəələrinə münasibətdə ayrı-seçkliyə, ədalətsizliyə yol

verməməli, onun hamısına bir gözlə baxmalı, ölkənin birliyi və xoşbəxtliyinə çalışmalıdır. Fərabi hesab edirdi ki, xalq tərəfindən seçilən başçı mütləq hakimiyyətə malik hökmdara çevrilməməlidir. Lakin Fərabinin əsərlərində təsvir və təqdim etdiyi demokratik cəmiyyət anlayışı çox zəif, tam aydın olmayan, ehtimal ki, xəyali demokratik sistem kimi verilmişdi. Onun ictimai-siyasi baxışlarını tədqiq edən tarixçi A.M. Cahid göstərir ki, Fərabinin irəli sürdüyü dövlət idarəçilik formaları monarxiya, aristokratiya (daha layiqli feodalların kollektiv rəhbərliyi) və feodal-demokratik üsullarından ibarətdir. O, sonunculara daha çox üstünlük verir və onu müdafiə edirdi. Fərabi özünün «Xoşbəxtliyə aparan yol haqqında» kitabında bu idarəçilik formaları üzərində ətraflı dayanır və onun hər birinin mahiyyət və məzmununu özünəməxsus ustalıqla açırdı.

Fərabinin traktatlarında ictimai-siyasi məsələlərə tez-tez toxunulur, xalq hakimiyyəti və demokratiya anlayışlarına üstünlük verilir. Onun təsvir etdiyi şəhər-dövlətdə hamı öz hərəkətlərində bərabər hüquqlu və azaddır, burada tabeçilik, tabe olmaq, birinin digəri üzərində hakimiyyəti (hökmranlığı) yoxdur. Şəhər-dövləti idarə edən şəxs hamının hörmət etdiyi, saydığı adam olmalıdır… Ona görə də, belə bir şəhər-dövlətdə ən layiqli adamlar yetişir.

Fərabinin dini baxışları da xüsusi maraq doğurur. Ona görə din xoşbəxtliyə nail olmağa xidmət etməlidir. O, bütün dinləri bərabər hesab etdiyi kimi, islam dinini ehkam kimi qəbul etmir. O, hakim müsəlman dini ideologiyasının əksinə olaraq islam dininin başlıca vəzifəsini xalqın xoşbəxtliyinə nail olmaqda, hər cür sinfi-siyasi qruplaşmaların təsirinə düşməməkdə görürdü. O, xalqın və dövlətin maariflənməsində din xadimlərinin üzərinə düşən vəzifələrdən bəhs edərək yazırdı ki, dövlətdə yaşayan əhalinin dini etiqadından, onların müsəlman və ya qeyri-müsəlman olmalarından asılı olmayaraq din bütün xalqların nümayəndələrinə bərabər yanaşmalıdır. Dini ayrı-seçkiliyə və dini təriqətçiliyə yol verilməməli, onun daxilən parçalanması xəttini yürüdənləri, bu yolda yalan və böhtandan istifadə edənləri, dini öz mə-

nafeyinə, xidmət vasitəsinə çevirənləri ifşa edirdi. O, islam dinini müqəddəs hesab etdiyi üçün onun qayda və qanunlarına əməl edən, onun müqəddəsliyini qoruyub saxlayanlara hörmətlə yanaşıdı. «İlm-əl ulum» traktatının sonuncu bölməsində dini ehkamçılıq mövqeyində duran mütəzzəlitlərin dini mübahisə metodlarına qarşı çıxırdı.

Fərabinin dünyabaxışı IX-X əsrlərin mədəni nailiyyətlərinin yüksək sintezi kimi güclü və zəif cəhətlərə malikdir. O, əsərlərində mənəvi müəllimi və ustadı Aristotelin təlimini yeni tarixi şəraitdə-yaşadığı feodal mühtində Yaxın və Orta Şərq xalqlarının, o cümlədən Mərkəzi Asiya türklərinin mədəni nailiyyətləri zəminində inkişaf etdirməyə cəhd etmişdi. Onun təlimi o zaman hökm sürən feodal cəmiyyətinin insanlığa qarşı çevrilmiş qayda-qanunlara, islamın müqəddəs qanun və kəlamlarından öz şəxsi mənafeyi üçün istifadə edən cahil və ədalətsiz din xadimlərinə qarşı çevrilmişdi. Elə bu səbəbdən də, din xadimləri onu kafir, mürtəd və dinsiz adlandırmış, xalqın gözündə onu hörmətdən salmağa çalışmışdılar.

Fərabi öz əsərlərində ədalətli, yüksək inkişaf etmiş, azad və vahid cəmiyyət arzu edirdi və buna nail olmağın əsas yolunu maariflənməkdə, savad və elmdə görürdü. Onun təsvir etdiyi cəmiyyət xəyali-utopik cəmiyyət idi.

Orta əsrlərdə Yaxın və Orta Şərqin, o cümlədən Mərkəzi Asiyanın türk mənşəli xalqları içərisində öz mütərəqqi ictimai-siyasi, tarixi və fəlsəfi baxışları ilə fərqlənən əl-Fərabi özündən sonra böyük irs qoyub getmişdir. Onun təsiri altında öz vətənində, İran, Türkiyə, Qafqazda ərəb ölkələrində onun nominal fikirləri – maarifçilik ideyaları, ideal cəmiyyət və maarifçi müdrik hökmdar haqqında və b. sahələrdə təbliğ etdiyi ideyalar geniş yayılmışdı. Fərabinin ideyaları Biruni, Bəhmənyar, Nizami, Nəsimi, Beyhaki, Xosrov Nasiri, Ömər Xəyyam, Cami, Füzuli, Əlişir Nəvai, Əhməd Doniş kimi böyük elm və sənət korifeylərinin ictimai baxışlarına mühüm təsir göstərmiş, onun sənət və elm dünyasından minlərlə alim və ziyalılar işıq almışdır. Fərabinin sosial-siyasi ideyaları, tarixi-fəlsəfi görüşləri müasir dövrdə

istər Şərqdə, istərsə də Qərbdə bir çox tarixi, fəlsəfi və elmi cərəyanların ideya mübarizəsində mühüm istinad mənbəyidir. Yer kürəsinin tərəqqipərvər adamları, elm, ədəbiyyat və incəsənət xadimləri bu gün də Əbu Nəsr əl-Fərabiyə böyük hörmətlə yanaşır, onun zəngin ədəbi irsini öyrənməyə çalışırlar. Onun əsərləri dünyanın bir çox ölkələrində təkrar-təkrar çap olunur, onun haqqında geniş elmi axtarışlar aparılır, həyatı və yaradıcılığını əks etdirən tədqiqat əsərləri yazılır. Onun adına maarif, elm, mədəniyyət ocaqları vardır.

Fərabinin ideyaları dünya elm və mədəniyyət xəzinəsini bəzəyən nadir incilər olub, xalqın azadlığı uğrunda mübarizəyə xidmət etmiş və etməkdədir.

Məmmədov, Eldəniz. Türk dünyasının görkəmli şəxsiyyətləri.- Bakı, 2010.- S. 5-28.